## SƏNİN HÜQUQLARIN:

* zorakılıq olmayan ailədə yaşamaq;
* həyatınızın, sağlamlığınızın və hüquqlarınızın müdafiəsi;
* özünüz barədə müstəqil şəkildə qərar qəbul etmək;
* zorakılıq hallarında sizi və övladınızı qorumaq üçün dövlər qurumlarına müraciət etmək;
* dövlət vəsaiti hesabına dərhal tibbi yardım almaq,
* yardım mərkəzində müvəqqəti sığınacaqla təmin olunmaq,
* geyim və qida məhsulları ilə təmin olmaq;
* psixoloji reabilitasiya və psixoloji korreksiya kursu keçmək;
* təhlükəsizliyinizin təmin olunması;
* mühafizə orderinin alınması;
* münasibətlərin bərpa olunması istiqamətində yardım almaq.





**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi**
**Ünvan: Bakı şəhəri Səbail rayonu, Ü.Hacıbəyov küçəsi 40, Hökumat Evi, III qapı**
**Telefon: (+99412) 493-70-39**



# Məişət zorakılığı qurbanlarının hüquqları

**Məişət zorakılığı nə deməkdir:** - yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə, birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurması.



## Məişət zorakılığının növləri:

1. ***fiziki zorakılıq*** - birinin digərinə qəsdən fiziki təzyiq göstərməsi, yəni zor tətbiq etməklə təhlükəsizliyini pozması, döyməsi, sağlamlığına zərər vurması, işgəncə verməsi, azadlıq hüququnu məhdudlaşdırması;
2. ***psixi zorakılıq*** - birinin digərinə qəsdən psixi təzyiq göstərməsi və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətləri;
3. ***iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi*** - birinin digərini onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum etməsinə, iqtisadi asılılıq yaratmasına, belə asılılığı saxlamasına və ya ondan sui-istifadə etməsinə yönəlmiş hərəkətləri;
4. ***cinsi zorakılıq*** - birinin digərini onun iradəsi əleyhinə seksual xarakterli hərəkətlərə məcbur etməsi.

## Kimlər məişət zorakılığından zərər çəkmiş şəxs ola bilər:

* birgə və ya əvvəllər birgə yaşamış ailə üzvləri (ər, arvad, valideynlər, uşaqlar, nənələr, babalar, nəvələr, doğma və ögey qardaşlar və bacılar, övladlığa götürmüş və övladlığa götürülmüş şəxslər), habelə birgə yaşadığı hallarda digər qohumlar;
* nikah pozulduqdan sonra birgə və ya ayrılıqda yaşayan keçmiş ər-arvad;
* qəyyum və ya himayəçi təyin olunmuş fiziki şəxslər, habelə üzərində qəyyumluq və ya himayəçilik təyin edilmiş şəxslər;
* qanuni nikahda olmadan birgə yaşayan kişi və qadın, habelə onlarla birgə yaşayan yaxın qohumlar.



**YADDA SAXLA!**

Heç nə zorakılığa haqq qazandıra bilməz! Zorakılığı törədən şəxs məsuliyyətə cəlb edilməlidir!

1. ***Həyat və sağlamlıq üçün təhlükə yarandıqda hüquq-mühafizə orqanlarına müraciət edə bilərsiniz;***
2. ***Bədən xəsarəti olduqda həkimə müraciət edə bilərsiniz;***
3. ***Ailənizdə zorakılıqla əlaqədar pulsuz hüquqi, psixoloji dəstəyə ehtiyac olduqda aşağıdakı əlaqə vasitələrinə müraciət edə bilərsiniz.***

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi:

012-498-00-92 tefonuna

(012) 860 Dəstək xətt

Daxili İşlər Nazirliyi:

102 Qaynar xətt

Sosial Xidmətlər Agentliyi:

116 123 Qaynar xətt

Vəkillər Kollegiyası

012-594-14-95

Səhiyyə Nazirliyinin Psixi Sağlamlıq Mərkəzi:
İnam Telefon Xətti:

012-566-50-61



4. ***Məişət zorakılığına məruz qaldıqda yardım üçün müvafiq qurumlara müraciət edə bilərsiniz:***

* Olduğunuz yer üzrə yerli icra hakimiyyətinə;
* Olduğunuz yer üzrə bələdiyyəyə;
* Uşaq və Ailələrə Dəstək Mərkəzinə;
* Qadın Resurs Mərkəzinə;
* Məişət zorakılığından zərər çəkmiş şəxslərə sosial xidmət göstərilməsi üçün akkreditasiya olunmuş qeyri-dövlət yardım mərkəzlərinə;
* Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə;
* Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST) yerli şöbələrinə;
* Sosial Xidmətlər Agentliyinin yerli şöbələrinə.